# Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş rəsm sərgisi açılıb

**Aprelin 18-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş rəsm sərgisi açılıb. Sərginin açılış tədbirində rəsmi şəxslər, Naxçıvanda fəaliyyət göstərən rəssamlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



Əvvəlcə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, əməkdar rəssam Ülviyyə Həmzəyeva bildirib ki, sərgidə 2012-ci ildən Naxçıvanı dünyada tanıtmaq məqsədilə keçirilən "Naxçıvan - Bəşəriyyətin beşiyi" Beynəlxalq rəsm festivallarında iştirak etmiş xarici və yerli rəssamların əsərləri nümayiş etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvanın muxtariyyəti xalqımızın və dövlətimizin tarixi nailiyyətidir. Naxçıvanın muxtariyyəti digər sahələrlə yanaşı, bölgənin mədəni inkişafına da töhfələr verib. İstər Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində biz bu töhfələrin şahidi olmuşuq. Bugünkü tədbirin muxtariyyətin 100 illiyinə həsr olunması da Naxçıvan mədəniyyətinə və incəsənətinə mühüm töhfədir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi tərəfindən "Naxçıvan - Bəşəriyyətin beşiyi" Beynəlxalq rəsm festivallarının keçirilməsi də bu sahədə ilklərdən olub, diyarımızın qədim tarix və mədəniyyətinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edib.

Ali Məclisin Sədr müavini qeyd edib ki, incəsənət hər bir dövr üçün vacib sahədir. Texnologiyanın sıçrayışı dövründə belə incəsənət bizim həyata baxışımızı formalaşdıran sənət növüdür. Həm indiki dövrün hadisələrini gələcəyə çatdırmaq, həm də gələcək nəsillərin estetik zövqünü formalaşdırmaq baxımından faydalıdır. Doğma diyarımızın qədim tarixinin, zəngin mədəniyyətinin belə əsərlər vasitəsilə nümayiş etdirilməsi muxtariyyət tariximizə mühüm töhfə və gələcək nəsillərə dəyərli ərməğandır.

Anar İbrahimov Naxçıvanda fəaliyyət göstərən rəssamlara bu yolda uğurlar arzulayıb, sərginin təşkilinə görə təşəkkür edib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Asip Kaya Türkiyə və Azərbaycan arasındakı sarsılmaz dostluq və qardaşlıq münasibətlərindən, mədəni əlaqələrimizin davamlılığından danışıb, Naxçıvan Muxtar Respublikasının 100 illiyinin Türkiyədə müxtəlif tədbirlərlə və rəsm sərgiləri ilə qeyd olunmasını yüksək qiymətləndirib.

Rəssamlar Birliyinin sədri, əməkdar rəssam Ülviyyə Həmzəyeva Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş şüşə üzərində döymə əsərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Anar İbrahimova hədiyyə edib.

Baxış zamanı məlumat verilib ki, sərgidə "Naxçıvan - Bəşəriyyətin beşiyi" Beynəlxalq rəsm festivallarında müxtəlif illərdə iştirak etmiş 52 rəssamın 54 əsəri nümayiş olunur. Əsərlərdə Naxçıvan təbiəti, abidələri, milli-mənəvi dəyərlərimiz rənglərin dili ilə dolğun şəkildə ifadə olunub.

Sərgi aprelin 20-dək davam edəcək.

Azərbaycan.- 2024.- 19 aprel, № 78.- S.4.